

# Qalibiyyət səfəri

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına, o cümlədən viran qoyulmuş Füzuli və Cəbrayıl şəhərlərinə 16 noyabr tarixli möhtəşəm səfəri öz ismarıcları ilə yaddaşlara əbədi köçəcək. Bu səfər 44 günlük müzəffər hərbi və siyasi - diplomatik yürüşümüzün, "qələbə "twit"ləri"nin, "xalqa müraciətlər"in məntiqi davamı, inkişafı və ümumiləşdirməsidir. Bu səfər – gələcəyə baxışımızın ifadəsi, təntənəsidir.**

Hərbi geyimli ali dövlət rəhbərliyinin işğaldan azad edilmiş torpaqlara səfəri, səfərdən yayılan anlamlı görüntülər, verilən ismarıclar dosta da, düşmənə də yetir. Dost sevinir, düşmən xar olur. O düşmən ki, bu gün xaos, nihilizm, qeyri-müəyyənlik girdabındadır. O düşmən ki, öz xalqına danışdığı yalanları ayaqları altına yığmaq mümkün olsa, başı qara buludlara dəyər. Bəli, məhz qara buludlara! Onlardan fərqli olaraq, Azərbaycan Ali Baş Komandanının başı üstündə "Çingiz Xanın Ağ buludu"nun dolaşdığına inanıram. İnanıram ki, yüz illər keçsə də, zəfər ruhu, qalibiyyət eşqi, böyük gələcəyə böyük baxışlar eyni mahiyyətdə, eyni dərəcədə qalır.

Bu gün Azərbaycan qalibdir! Müzəffər Ali Baş Komandanın işğaldan azad edilmiş torpaqlarımızda müqəddəs bayrağımızı dalğalandırması Milli Dirçəliş Günümüzə ən gözəl töhfə idi! Bu il ilk dəfədir ki, Milli Dirçəliş Günümüzü adına layiq qarşılayır, keçiririk. Şuşada, işğal altındakı digər şəhər və rayonlarımızda bayrağımız dalğalanmadıqca, milli dirçəlişimiz kəm qalırdı, kəsirdə qalırdı və bayramları ürəklə keçirə bilmirdik...

Füzuliyə səfər zamanı, yol boyu bölgələrdə yaşayan sakinləri salamlamaq üçün maşından enən Prezident İlham Əliyevin əhali tərəfindən necə coşqu və izdihamla qarşılandığını gördük. Ali dövlət rəhbərliyimizin respublikamızın bölgələrinə səfərləri həmişə izdihamla müşayiət olunub, xalq coşqusunun şahidi olmuşuq. Ancaq budəfəki coşqu qalib xalqın duyğu - düşüncəsinin, hiss-həyəcanının, keçmiş kədərdən sıyrılmağın və bugünkü sevincin təcəllası idi.

Qalib ordunun şanlı Ali Baş Komandanını izdihamla qarşılayan vətəndaşların sevincinin məzmunu, dərinliyi və üfüqü bir başqaydı... Qalib Prezidentə xalqın ehtiramı ürəyimizi qabartdı, qürurdan gözümüz yaşardı.

Vətəndaşımıza, bütün dünya azərbaycanlılarına tarixi qələbə hissləri yaşadan Prezidentə vətəndaş öz sevgisini səmimi şəkildə nümayiş etdirdi. Bu, müzəffər Ali Baş Komandanın Azərbaycana qazandırdığı möhtəşəm tarixi qələbədən sonra bölgələrə ilk səfəri idi. Ali dövlət rəhbərliyinin qələbədən sonra Bakı daxilində getdiyi ilk ünvan isə yaralı hərbçilərimizin müalicə aldığı 1 saylı Kliniki Tibbi Mərkəz olmuşdu. Bu İLKlər xalqımıza necə ilklər yaşatmış rəhbərin xalqa, Vətənə bağlılığını bir daha sübut edir.

Beləliklə, Prezident öz sevincini öz əsgəri ilə, öz xalqı ilə, onun ətrafına toplaşıb "Qarabağ Azərbaycandır!", "Qarabağ bizimdir!" şüarları səsləndirən vətənpərvər Azərbaycan övladları ilə bölüşdü.

Məhz xalqın dəstəyinə arxalanan İlham Əliyev hər zaman ümumxalq məhəbbəti ilə əhatə olunub. Dövlət başçısının gerçəkləşdirdiyi bu səfər isə nə ötən, nə gələcək səfərlərə bənzəməz! Tarixiliyi, müqəddəsliyi, qalibiyyəti və əzəməti ilə müqayisəyəgəlməzdir. Rəhbər öz xalqına, xalq öz rəhbərinə bağlı olanda xariqələr yaranır.

*(ardı 6-cı səhifədə)*

Xalq qəzeti 2020.- 20 noyabr.- S.1;6.

# Qalibiyyət səfəri



*(əvvəli 1-ci səhifədə)*

Sevgi, səmimiyyət təntənəsi idi Füzuli görüşü! Bu görüş, bu səfər Füzuli babamızın ruhunu şad etdi, Allahın xeyir mələyi Cəbrayılın alqışını qazandı. Yeri gəlmişkən, müzəffər Ali Baş Komandan 44 günlük Azərbaycan Böyük Vətən Müharibəsini haqlı olaraq, Xeyirin Şər üzərində qələbəsi kimi xarakterizə etdi. Ermənistan hərbi - siyasi rəhbərliyinin təlimatları və demək olar, bütün təbəqələrdən olan ermənilərin təmsilçiliyi ilə dağıdılmış, viran edilmiş el -obalarımızı, yurd yerlərimizi nişan verən, göstərən Azərbaycan Prezidentinin, "sanki burdan vəhşi qəbilə keçib" -- sözləri tarix kitablarına, ədəbi - bədii əsərlərə köçəcək, yaddaşlara yazılacaq, unudulmayacaq...

Prezidentin Füzuli və Cəbrayıl səfəri qələbənin nidasıdır. "Qarabağ Azərbaycandır və nida" deyimi səsləndirildiyi vaxtdan milli şüara çevrildi, dillər əzbəri oldu, nəhayət hökmə çevrildi, "Azərbaycanın dəmir yumruğu" ilə təsdiq və təsbit olundu.

Bəs bu müharibənin fərqli sonucları nəyi ifadə edir? O, hansı ismarıclarla tarixləşəcək? 27 il boyu "qalib ədası"ndan əziyyət çəkən yoxsul və cırtdan Ermənistanda Baş nazir öz vətəndaşından, xalqından gizlənir, "feysbuk baş nazirliyi" ilə məşğul olur. Paşinyan yaşının -- başının ən böyük yanlışını Azərbaycan xalqına, Azərbaycan dövlətinə, şəxsən dövlət başçısı İlham Əliyevə münasibətdə etdi. "Qarabağ Ermənistandır və nöqtə", "Azərbaycan danışıqları "Artsax"la aparmalıdır" sərsəmləmələri, bizim əziz Şuşada sərxoş rəqsləri, ultimativ "7 şərt"i və s. ilə öz aqibətini müəyyənləşdirdi Paşinyan. Paşinyanın öz soyadını dəyişib Peşmənyan qoyacaq qədər peşman olması lazımdır.

Müdafiə naziri Tonoyanın fikirlərinə söykənib "Yeni müharibə -- yeni ərazilər" tezisi ilə çıxış edən Ermənistan siyasi və hərbi rəhbərliyi, budur, öz torpaqlarını azad etmiş Azərbaycanın Ali Baş Komandanının coşqulu səfərini izləyir. Bu səfər işğalçıya göz dağıdır.

Qalibiyyət bayrağımızın həm mənəvi cəhətdən, həm də faktiki olaraq qaldırılması, eləcə də, Xudafərin körpüsünün ziyarəti öz rəmziliyi və mahiyyəti ilə qəlbimizə fərəh bəxş etdi. Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın düşmən tapdağından azad edilmiş torpaqlarda gəzintisi, atdıqları hər addım xalqımızda qürur yaşatdığı kimi, Paşinyan ordusunun məğlubiyyətinin geniş miqyaslı təntənəsi idi.

Şuşanın, ondan bir gün sonra qəhrəman Azərbaycan Ordusunun daha 70-dən çox yaşayış məntəqəsini işğalçılardan azad etməsini düşmənə vurulan son zərbə adlandıran Prezident dedi: "Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir".

Cənab Prezident eyni zamanda viranəyə çevrilmiş yerlərin tezliklə bərpa olunacağını, köçkünlərin yurd - yuvalarına qayıdacağını da bildirdi: "Bu gün artıq biz quruculuq işlərinə başlamışıq. Qələbə günündən 8 gün və Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra artıq bu yerdən – Alxanlı qəsəbəsindən Füzuli-Şuşa avtomobil yolu çəkilir. Bu yol çox rahat və geniş olacaq. Bu yol imkan verəcək ki, Şuşaya rahat gedib-gələ biləк.

İkinci Qarabağ müharibəsindəki uğurlar bizim şanlı Qələbəmizdir, işğal edilmiş torpaqlar işğalçılardan azad edilib. Düşmən tərəfindən vurulmuş ziyan hazırda hesablanır və dəqiq hesablanacaq. Zərərçəkmiş bütün insanlar dövlət dəstəyi hesabına öz dədə-baba torpaqlarına qayıdacaqlar. Bu işləri biz planlı şəkildə aparacağıq - ilk növbədə, ziyanın hesablanması, dəqiq uçotun aparılması, ondan sonra bərpa-yenidənqurma işləri".

Bayraq önündə diz çökən müzəffər Ali Baş Komandan, Qarabağda hansı bayrağın dalğalanmalı olduğunu ömürlük möhür vururmuşcasına nümayiş etdirdi. İşğalçıya diz çökdürən Ali Baş Komandan "şəhidimin son örtüsü" -- müqəddəs bayrağımız önündə diz çökdü, bayrağımızı öpdü, gözünün üstünə qoydu və sonra göylərə qaldırdı. Müqəddəs dövlət bayrağı önündə diz çökərək onu öpmək və gözünün üstünə qoymaq ənənəsini Ulu öndər Heydər Əliyev qoyub. Bu gün – Milli Dirçəliş Günümüzü adına, mahiyyətinə uyğun qeyd etdiyimiz bir vaxtda, 17 noyabr 1990-cı ildə Naxçıvan Ali Sovetində üçrəngli bayrağımızı dövlət bayrağı kimi rəsmiləşdirən, bu rəsmiyyəti ümumrespublika miqyasında da gerçəkləşdirmək üçün Azərbaycan Ali Sovetinə müraciət edən böyük dövlət və siyasət xadimini xatırlamaya bilmərik. Onun layiqli davamçısı bu gün müqəddəs dövlət bayrağımızı işğaldan azad etdiyimiz torpaqlarda qaldırır! Dövlətçilik irsi davam və inkişaf edir.

Milli Dirçəlişimiz mübarək olsun! Milli Dirçəlişdə xidməti olmuş, hazırda haqq dünyasında olan bütün soydaşlarımızın, həmvətənlərimizin ruhuna şadlıq diləyirəm!

Dövlətimiz var olsun!

***Qənirə PAŞAYEVA,***
***Milli Məclisin Mədəniyyət komitəsinin sədri***